**Qərar № 22/159**

# 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə Mərkəzi Seçki Komissiyasına daxil olmuş 23 sentyabr 2015-ci il tarixli 04 saylı müraciətə baxılması barədə Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının Qərarı

2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 125 saylı Zəngilan-Qubadlı seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Əliyev Baxşəli Əli oğlu 23 sentyabr 2015-ci ildə Mərkəzi Seçki Komissiyasına yazılı müraciət edərək namizəd kimi qeydə alınmasından imtinaya dair dairə seçki komissiyasının qərarının əsassız olmasını bildirmiş və müvafiq qərar qəbul edilməsi yolu ilə pozulmuş hüquqlarının bərpa olunmasını xahiş etmişdir.

Şikayət Azərbaycan Respublikası Seçki Məcəlləsinin 112-ci, 112-1-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"a uyğun olaraq Mərkəzi Seçki Komissiyasının nəzdində yaradılmış ekspert qrupunun üzvü tərəfindən icraata qəbul edilmiş, araşdırılaraq bu barədə rəy verilmiş və komissiyanın iclasında baxılmışdır.

Namizəd B.Ə.Əliyev müraciətində qeyd etmişdir ki, 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikası Milli Məclisinə seçkilərdə 125 saylı Zəngilan-Qubadlı seçki dairəsi üzrə namizədliyini öz təşəbbüsü ilə irəli sürmüş, seçicilərin imzasını toplayaraq imza vərəqələri və ona əlavə edilmiş digər zəruri sənədləri dairə seçki komissiyasına təqdim etmiş, lakin dairə seçki komissiyasının müvafiq qərarı ilə əsassız olaraq onun namizədliyinin qeydə alınmasından imtina edilmişdir.

Dairə seçki komissiyası namizədliyi irəli sürülmüş B.Ə.Əliyevin namizəd kimi qeydə alınmasından imtina edilməsi barədə qərarını onunla əsaslandırmışdır ki, namizəd tərəfindən imza vərəqələri və onlara əlavə edilmiş sənədlər dairə seçki komissiyasına təqdim olunarkən Seçki Məcəlləsinin 58.1.5-ci, 60.2.2-ci və 91.1-ci maddəsinin tələbləri pozulmuşdur.

Araşdırma prosesində müəyyən edilmişdir ki, B.Ə.Əliyev ümumi mülkiyyət hüququ əsasında ona məxsus olan əmlak barəsində müvafiq seçki sənədinə düzgün məlumat daxil etməmişdir. Belə ki, aidiyyəti dövlət orqanlarından təqdim edilmiş rəsmi sənədlərdən görünür ki, B.Ə.Əliyev ümumi mülkiyyət hüququ əsasında daşınmaz əmlaka və nəqiliyyat vasitəsinə sahibdir.

Bundan başqa, namizəd xüsusi seçki hesabının açılması ilə bağlı Seçki Məcəlləsinin tələblərini pozmuşdur.

Azərbaycan Respublikası Seçki Məcəlləsinin 60.2.2-ci maddəsinə əsasən namizədin qeydə alınması üçün təqdim edilən zəruri seçki sənədləri düzgün rəsmiləşdirilmədikdə və ya olmadıqda onun qeydiyyatından imtina üçün əsas yaranır.

Beləliklə, hərtərəfli, obyektiv və qərəzsiz araşdırma ilə şikayətin təmin olunması və dairə seçki komissiyasının mübahisələndirilən qərarının ləğv edilməsi üçün hüquqi əsasların olmadığı müəyyən edilmişdir.

Göstərilənlərə əsasən şikayət əsassız olduğundan təmin edilməməli, 125 saylı Zəngilan-Qubadlı seçki dairəsi dairə seçki komissiyasının B.Ə.Əliyevin namizədliyinin qeydə alınmasından imtina edilməsi barədə 21 sentybar 2015-ci il tarixli 15 saylı qərarı dəyişdirilmədən qüvvədə saxlanılmalıdır.

Yuxarıda göstərilənlər əsas götürülərək Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyası Seçki Məcəlləsinin 19.4-cü, 28.2-ci, 28.4-cü, 59-cu, 60-cı, 112-ci, 112-1-ci, 148-ci maddələrinə və "Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına və dairə seçki komissiyalarına seçki hüquqlarının pozulması ilə əlaqədar şikayət və müraciətlərin verilməsi və onlara baxılması qaydaları haqqında Təlimat"ın 1-ci, 2-ci, 4-cü, 6-cı və 7-ci hissələrinə əsasən **qərara alır:**

1. 2015-ci il noyabrın 1-nə təyin edilmiş Azərbaycan Respublikasının Milli Məclisinə seçkilərdə 125 saylı Zəngilan-Qubadlı seçki dairəsi üzrə namizədliyi öz təşəbbüsü ilə irəli sürülmüş Əliyev Baxşəli Əli oğlunun 23 sentyabr 2015-ci il tarixli 04 saylı müraciəti əsassız olduğundan təmin edilməsin və onun namizəd kimi qeydiyyatından imtina edilməsi barədə həmin dairə seçki komissiyasının 21 sentyabr 2015-ci il tarixli 15 saylı qərarı qüvvədə saxlanılsın.

2. Qərar dərc edildiyi gündən qüvvəyə minir.

**Sədr** Məzahir Pənahov
**Müavin** Natiq Məmmədov
**Katib** Arifə Muxtarova

**Üzvlər**

| | |
|---|---|
| Şaitdin Əliyev | Nizami Nadirov |
| Fuad Cavadov | Azər Tağıyev |
| Ramiz İbrahimov | Tamam Cəfərova |
| Validə Kazımova | Bəxşeyiş Əsgərov |
| Qabil Orucov | Etibar Quliyev |
| Tofiq Həsənov | |
| İlham Məmmədov | |

*23.09.2015*